| Fəxrəddin Böyük oğlu Miralayev |  |
|---|---|

Fəxrəddin Böyük oğlu Miralayev 14 mart 1951-ci ildə Qazax şəhərində anadan olub. 1968-1974 ci illərdə Azərbaycan Politexnik institutunda təhsil alıb. 1975-1982 Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Bərpa idarəsində memar, 1983-1992 "Bərpaçı" Baş idarəsində memar, 1992-2000 Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələrin Mühafizəsi və Bərpası Komitəsinin sədri vəzifəsində işləyib. 2001-2002 Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Memarlıq abidələrinin bərpası və mühafizəsi Komitəsinin Baş idarəsinin rəisi vəzifəsinə təyin olunub. 2003-2015 "Azərbərpa" Elmi-Tədqiqat layihə institutunda baş memar vəzifəsində çalışıb. 100-ə yaxın bina layihələrinin müəllifidir.

Opera və Balet Teatrının bərpası, Bibi Heybət məscidi, Buzovnada Cümə məscidi, "ÜNS" teatrı (O. Səttarovla birgə), Fəxri Xiyabanın (R.Əliyevlə birgə) və Şəhidlər Xiyabanının rekonstruksiyası, Gəncədə İmamzadə Dini-memorial kompleksi, Qala kəndində Açıq səma altında Muzey, İçəri Şəhərin qala divarlarının bərpası, İqtisad Universitetinin və ətrafının regenerasiyası, Nəsimi meydanında yeraltı qaraj və mağaza (S.Salamzadə ilə birgə), Zərifə Əliyeva, Fizuli və Heydər Əliyev prospektlərində yerləşən binaların layihəsinin müəllifidir.

S.Vurğun, H.Cavid və Sahil bağlarının rekonstruksiyası, Bəhram Gurun heykəlinin ətrafı, Ağ fontan, Lazerli fontan, Göygöl şəhərində Bayraq meydanı və muzeyi, Göyçay şəhərində Yeni Azərbaycan Partiyasının binası, Moskva şəhərində "Bakı" restoranı, Budapeşt şəhərində 7 mərtəbəli binanın bərpa layihələri üzərində çalışıb. Fəxrəddin Miralayev 20 elmi məqalənin müəllifidir.

Fəxrəddin Miralayev Sofiya şəhərində keçirilən HUMA-2000 Beynəlxalq Müsabiqəsində bürünc mükafata layiq görülmüşdür (1983), Azərbaycan SSR-nin Lenin Komsomolu Mükafatı (1984), Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü (1999), "Ustad Memar" sertifikatı (2016), Azərbaycan Memarlar İttifaqı tərəfindən "Çoxillik yaradıcılıq fəaliyyətinə görə" Fəxri Fərmanlarla (2016, 2021) təltif olunub.

Üçüncü Bakı Beynəlxalq Memarlıq müsabiqəsində "Memarlıq sahəsində ən yaxşı jurnalist işi və tənqid" nominasiyası üzrə "Azərbaycanın bilinməyən memarlığı"əsərinə gör I dərəcəli diplomla təltif olunub (2017). Azərbaycanın Əməkdar memarı (2017). Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professorudur (2020).